# İşə nəzarət siyasəti

Caspian Engineering Solutions
Warranty of Quality

"Caspian Engineering Solution" MMC hər zaman təhlükəsiz və sağlam işçi mühitinin təmin edilməsini öz öhdəsinə götürür. Bizim siyasətimiz daxilində qəza hallarından, insanlara və ətraf mühitə zərərin vurulmasından qaçınmaq, eyni zamanda uyğunsuzluqların tədricən sıfır səviyyəsinə endirilməsi nəzərdə tutulmuşdur.

"Caspian Engineering Solution" MMC – nin bütün işçiləri təhlükəli işlərin icrasının dayanıdırılması öhdəliyini daşıyır, hər bir icra edilən iş təhlükəsiz şəraitində edilməli, sağlamlığa zərər vurmamalı və şirkətin KSƏTƏM siyasətinə uyğun olmalıdır.

Bütün personalın müvafiq işə nəzarət vəzifə borclarını yerinə yetirməsi və uyğun şəkildə təlimatlandırılması üçün təlim planı icra edilməkdədir. Spesifik vəzifə və öhdəliklər aydın şəkildə müəyyən edilmiş və sənədləşdirilmişdir. İşə nəzarət siyasətinin effektivliyi audit planına əsasən cədvələ salınaraq . Bizim bütün fəaliyyətimiz adekvat şəkildə planlaşdırılacaq, müvafiq şəkildə nəzarət altında saxlanılacaqla effektiv şəkildə monitorinqdən keçiriləcəkdir.

Bütün təhvil verəcəyimiz işlər KSƏTƏM – lə bağlı risklər və təhlükələri müəyyən edilməsi üçün risk qiymətləndirilməsindən keçiriləcəkdir. Bütün müəyyən edilmiş risklər aradan qaldırılacaq və ya mümkün qədər minimuma endiriləcəkdir. Risk qiymətləndirilməsi aparılmadan işlərin icrasına yol verilmir. Hər bir işlə əlaqədar olan təhlükələr barədə işçilərə məlumat verilməli və riskin qiymətləndirilməsi bütün işçilər tərəfindən imzalanmalıdır.

Əldə edilmiş təcrübə bütün CES heyətinə, müvafiq olduqda isə müştərilərə və podratçılara bildiriləcəkdir.

İş sisteminə icazə tətbiq edilmiş və tələb edildikdə uyğunlaşdırılmalıdır. "Caspian Engineering Solution" MMC iş görməzdən və ya müştərilər tərəfindən xidmətlərdən istifadə edilməsindən asılı olmayaraq müvafiq işə icazə hər hansı bir iş görülməzdən əvvəl əldə edilməli və riskin qiymətləndirilməsi zamanı işə qəbul üçün əsas şərt kimi qəbul edilməlidir. İş öncəsi qısa təlimatlandırmanın tətbiq edilməsi ilə işə cəlb edilmiş şəxslər işin həcmi, təhlükələr, nəzarətlər barədə məlumatlandırılmalı və işçilər tərəfindən tam başa düşülməsi yazılı şəkildə təsdiqlənməlidir.

İşlərin təhlükəsiz şəkildə və sağlam şəraitdə icrasının təmin edilməsi üçün bütün işlər nizamlı və effektiv şəkildə məsul şəxs tərəfindən nəzarətdə saxlanılacaqdır. İşlər tamamlandıqda və ya işlər dayandırıldıqda iş sahəsi təmiz və təhlükəsiz şəraitdə saxlanmalıdır. İşə icazə proseduru audit proqramından keçiriləcəkdir, audit mütəmadi şəkildə uyğunluğu və yeni imkanları müəyyən edəcəkdir.

İşə icazə üzrə cəlb edilmiş işçilərin vəzifə və öhdəlikləri rəhbərliyin hesabatı daxil olmaqla açıq şəkildə müəyyən edilmişdir.

Şirkət tərəfindən işə götürülmüş bütün işçi heyət İnteqrəolunmuş Menecment Sisteminin bir hissəsi olaraq işə nəzarət siyasətində göstərilmiş prosedur və təlimatlara riayət etməlidirlər.

Camaləddin Əliyev

Direktor

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ CASPIAN ENGINEERING SOLUTIONS LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC